**AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİNİN KOLLEGİYASI**

**Q Ə R A R**

**1717050000006200**

**Bakı şəhəri** **27 yanvar 2017-cı il**

**Azərbaycan Respublikası Vergi Məcəlləsində nəzərdə tutulmuş bir sıra sənəd formalarının və qaydaların təsdiq edilməsi haqqında**

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 dekabr tarixli 1171 nömrəli Fərmanı ilə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədi ilə, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"nin 17-ci hissəsini rəhbər tutaraq Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR**

1. "Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi qaydaları" təsdiq edilsin (1 nömrəli əlavə).
~~2. "Ticarət festivalları, dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatının aparılması qaydası" təsdiq edilsin (2 nömrəli əlavə).~~ [1]
3. "Nəzarət olunan əməliyyatlar barədə arayış" forması və onun tərtib edilmə qaydası təsdiq edilsin (3 nömrəli əlavə).
~~4. "Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 90.3-cü maddəsinə əsasən təqdim edilən rüblük məlumat " forması təsdiq edilsin (4 nömrəli əlavə).~~
5. "Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 90.3-3-cü maddəsinə əsasən təqdim edilən aylıq məlumat" forması təsdiq edilsin (5 nömrəli əlavə).
6. "Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 90.3-4-cü maddəsinə əsasən təqdim edilən aylıq məlumat" forması təsdiq edilsin (6 nömrəli əlavə).
7. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq departamentinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.
8. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinə tapşırılsın ki, bu Qərarla təsdiq edilmiş normativ hüquqi aktların Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.
9. Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Vergilər nazirinin birinci müavini,
**3-cü dərəcəli dövlət vergi xidməti müşaviri** **Sahir Məmmədxanov**

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2017-ci il 27 yanvar tarixli 1717050000006200 nömrəli Qərarı ilə təsdiq edilmişdir

Əlavə - 1

**Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi**
**QAYDALARI**

**1. Ümumi müddəalar**

1.1. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 dekabr tarixli 1171 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və Azərbaycan Respublikasının vergi orqanları tərəfindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin *(bundan sonra – Vergi Məcəlləsi)* 14-1-ci maddəsinin tətbiqinin təmin edilməsi üçün transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi qaydalarını müəyyənləşdirir.[2]

1.2. Transfer *qiymətlərinin tətbiqi nəticəsində yaranmış fərq* mənfəət (gəlir) vergisinin məqsədləri üçün istifadə edilir. [3]

*1.3. Qeyri-rezident şəxslərin Azərbaycan mənbəyindən əldə etdiyi gəlirlər üzrə mənfəətin (gəlirin) müəyyən edilməsi və həmin qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə münasibətdə vergilərin hesablanması Vergi Məcəlləsinin 14-1-ci maddəsinə və bu Qaydalara əsasən müəyyənləşdirilir.*[4]

**2. Əsas anlayışlar**

2.0. *Bu Qaydalarda transfer qiymətlərinin tətbiqi sahəsində istifadə olunan anlayışlar, əgər bu Qaydalarda digər məna nəzərdə tutulmamışdırsa, Vergi Məcəlləsində, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının "Transmilli şirkətlər və vergi orqanları üçün Transfer qiymətləndirmə Qaydaları"nda (həmin Qaydaların Azərbaycan dilinə tərcümə edilmiş mətninin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsində yerləşdirilməsi təmin edilir) qəbul edilmiş mənada tətbiq edilir.* Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:[5]

2.0.1. Nəzarət olunan əməliyyat – aşağıdakı şəxslər arasında həyata keçirilən əməliyyatlar:

2.0.1.1. Azərbaycan Respublikasının rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident *şəxslər, habelə həmin rezidentin başqa dövlətlərdə (ərazilərdə) yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi* arasında;[6]

2.0.1.2. Qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə həmin qeyri-rezidentin özü və ya onun başqa dövlətlərdə yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi, *həmin qeyri-rezidentlə qarşılıqlı asılı olan və başqa dövlətdə yerləşən hər hansı digər şəxs* arasında; [7]

2.0.1.3 Azərbaycan Respublikasının rezidenti və (və ya) qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlər arasında;

*2.0.1.4. bu Qaydaların 2.0.1.1 - 2.0.1.3-cü yarımbəndlərində göstərilən hallar istisna olmaqla, Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə qeyri-rezident şəxslər arasında, bu şərtlə ki:*[8]

*1. şəxslər beynəlxalq əmtəə birjalarında ticarət olunan məhsullar üzrə əməliyyat aparmış olsunlar və (və ya);*

*2. Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin vergi ili ərzində ümumi gəlirləri 30 milyon manatdan çox və hər bir qeyri-rezident şəxslə apardığı əməliyyatların həcminin ümumi gəlirlərdə (xərclərdə) xüsusi çəkisi 30 faizdən artıq olsun.*

2.0.2. Nəzarət olunmayan əməliyyat – bu Qaydaların 2.0.1-ci yarımbəndinin əhatə dairəsinə daxil olmayan əməliyyat;

2.0.3. Müqayisə edilən əməliyyat - müstəqil tərəflər arasında nəzarət olunan əməliyyatla eyni və ya oxşar şərtlər daxilində həyata keçirilən və müqayisəli təhlil nəticəsində seçilən əməliyyat;

2.0.4. Transfer qiyməti - nəzarət olunan əməliyyatlar üzrə malların (işlərin, xidmətlərin) ~~Azərbaycan Respublikasının~~ Vergi Məcəlləsinə və bu Qaydalara müvafiq qaydada müəyyən edilən qiyməti;[9]

2.0.5. Müqayisəli təhlil – nəzarət olunan əməliyyatla müqayisə edilə bilən nəzarət olunmayan əməliyyatın seçilməsi prosesi;

2.0.6. Təkrar satış marjası – mal göndərənlərə ödənilmiş alış qiyməti ilə sonrakı (təkrar) satış qiyməti arasındakı fərq (tətbiq olunmuş əlavələr daxil olmaqla);

2.0.7. Gəlir marjası – malların (işlərin, xidmətlərin) istehsalı ilə bağlı çəkilmiş faktiki xərclərin üzərinə istehsalçı tərəfindən əlavə edilən gəlir marjası ;

2.0.8. Xüsusi çəki:

2.0.8.1. əldə edilən mənfəətin ümumi gəlirdə, ümumi xərclərdə və ya aktivlərin ümumi dəyərində xüsusi çəkisi;

2.0.8.2. eyni müəssisə qrupunun üzvü olan müəssisələr arasında aparılan əməliyyatdan hər bir tərəfin əldə etdiyi mənfəətin qrupun məcmu mənfəətində xüsusi çəkisi;

*2.0.8.3. Bu Qaydaların 2.0.8.1-ci və 2.0.8.2-ci yarımbəndlərində göstərilən hallardan başqa vergi orqanı və vergi ödəyicisi arasında razılaşdırılmış və əsaslandırılmış qaydada müəyyən edilən xüsusi çəki.*[10]

*2.0.9. Kvartillərarası məqbul interval - bütün müqayisə edilən əməliyyatlardan seçilmiş müvafiq göstəricilərin (qiymət, marja və ya xüsusi çəki) aşağı kvartilinin medianı ilə yuxarı kvartilinin medianı arasındakı intervaldır. Transfer qiyməti kvartillərarası məqbul intervaldan kənarda olarsa, bu zaman vergi həmin intervalın medianından istifadə edilməklə hesablanır;*

*2.0.9-1. Aşağı kvartil - verilənlər bazasının aşağı yarısının medianı;*

*2.0.9-2. Yuxarı kvartil - verilənlər bazasının yuxarı yarısının medianı;*[11]

2.0.10. Müəssisə qrupu – bir müəssisənin baş ofisi, onun hansı dövlətdə yerləşməsindən asılı olmayaraq filialları, nümayəndəlikləri, törəmə və ya asılı müəssisələri və digər bölmələrinin məcmusu;

2.0.11. Qrupdaxili maliyyələşdirmə - eyni müəssisə qrupuna daxil olan şəxslər arasında faiz ödənişlərinin edilməsinə səbəb olan borclar və kreditlər, o cümlədən bank zəmanəti;

*2.0.12. Test edilən tərəf (müəssisə) - transfer qiymət metodunun ən etibarlı şəkildə tətbiq oluna biləcəyi və müqayisə üçün ən etibarlı məlumatların əldə ediləcəyi, yəni nəzarət olunan əməliyyatda mürəkkəblik baxımından ən sadə funksiyaları həyata keçirən tərəf.*[12]

### 3. Ümumi prinsiplər

Vergi ödəyicisi tərəfindən nəzarət olunan əməliyyatlar çərçivəsində təqdim edilən və ya alınan malların (işlərin, xidmətlərin) qiymətləri müqayisə edilən nəzarət olunmayan əməliyyatlar üzrə qiymətlərə uyğun olmadığı halda, vergi ödəyicisi və vergi orqanı həmin əməliyyatdan vergini transfer qiymətləri əsas götürülməklə yenidən hesablayır.

### 4. Transfer qiymətinin müəyyən edilməsi üçün müqayisə edilən əməliyyatların seçilməsi

4.1. Transfer qiymətinin müəyyən edilməsi məqsədi ilə nəzarət olunan əməliyyatla müqayisə edilən nəzarət olunmayan əməliyyatların seçilməsi müqayisəli təhlil əsasında aparılır.

4.2. Müqayisə edilən nəzarət olunmayan əməliyyat qismində həm nəzarət olunan əməliyyatın tərəfi olan şəxsin özünün müstəqil şəxslərlə apardığı oxşar əməliyyatlar, həm də müstəqil şəxslər arasında aparılan oxşar əməliyyatlar istifadə edilə bilər.

4.3. Müqayisə edilən oxşar əməliyyatların seçilməsi zamanı onların nəzarət olunan əməliyyatla eyni dövrdə həyata keçirilməsi və aşağıdakı göstəricilərin eyni və ya oxşar olması əsas götürülməlidir:

4.3.1. Əməliyyatın predmeti olan malların (işlərin, xidmətlərin) növü, mənşə ölkəsi, keyfiyyəti və digər istehlak göstəriciləri və s.;

4.3.2. Müqavilə şərtləri, o cümlədən təqdim edilən malların miqdarı, işlərin, xidmətlərin həcmi, müqavilə üzrə öhdəliklərin icra olunması müddətləri, çatdırılma şərtləri, ödəniş şərtləri;

4.3.3. Əməliyyatın tərəfləri olan şəxslərin hər birinin əməliyyatla bağlı həyata keçirdikləri funksiyalar və daşıdığı risklər;

4.3.4. Vergi ödəyicisinin əməliyyat zamanı istifadə etdiyi mülkiyyətində olan və ya cəlb edilmiş maddi və qeyri-maddi aktivlər və hüquqlar;

4.3.5. Əməliyyatın tərəfləri olan şəxslərin fəaliyyət göstərdikləri iqtisadi şərait, o cümlədən, bazarların coğrafi yerləşməsi, bazarda eynicinsli və ya oxşar malların (işlərin, xidmətlərin) mövcudluğu;

4.3.6. Marketinq siyasətinin aparılması ilə əlaqədar olaraq yeni malların (işlərin, xidmətlərin) bazara çıxarılması, mövcud malların (işlərin, xidmətlərin) yeni bazarlara çıxarılması, mövcud mal növlərinin təkmilləşdirilmiş versiyalarının bazara çıxarılması və digər bu kimi hallar.

4.4. Nəzarət olunan əməliyyat qeyri-maddi *aktivlər üzrə hüquqların mülkiyyətə verilməsi və ya güzəşt edilməsi* ilə bağlı olduqda, onunla müqayisə edilə bilən əməliyyatın seçilməsi üçün müqayisəli təhlil həyata keçirilən zaman bu Qaydaların 4.3-cü bəndində nəzərdə tutulanlardan əlavə olaraq, aşağıdakı göstəricilər müqayisə edilir:[13]

4.4.1. *mülkiyyətə verilən və ya güzəşt edilən* patent, ticarət markası, lisenziya və ya digər qeyri-maddi aktivin ~~əldə edilməsinin bazarda~~ onu əldə edən şəxsə verəcəyi üstünlük;[14]

4.4.2. *mülkiyyətə verilən və ya güzəşt edilən* qeyri-maddi aktiv üzrə hüquqların istifadəsi , *təkrar təqdim edilməsi* ilə bağlı hər hansı coğrafi məhdudiyyət və ya qadağa;[15]

4.4.3. qeyri-maddi aktivdən istifadə hüququnun müstəsna və ya qeyri-müstəsna ~~hüquq~~ olması;[16]

4.4.4. qeyri-maddi aktivdən istifadə hüququnu əldə edən şəxsin onu təkmilləşdirmək və ya dəyişdirmək səlahiyyətlərinin olması.

4.5. Nəzarət olunan əməliyyat qrupdaxili maliyyələşdirmə ilə bağlı olduqda, onunla müqayisə edilə bilən əməliyyatın seçilməsi üçün müqayisəli təhlil həyata keçirilən zaman bu Qaydaların 4.3-cü bəndində nəzərdə tutulanlardan əlavə olaraq, aşağıdakı göstəricilər müqayisə edilir:

4.5.1. Borc və ya kredit *əməliyyatları mövcud olduqda, borcalan tərəfin və ya öhdəliklərinə zəmanət verilən* tərəfin kredit tarixçəsi və ödəmə qabiliyyəti;[17]

4.5.2. Təminatın *növü* və bazar dəyəri;[18]

4.5.3. Kredit və ya borcun verilməsi müddəti;

4.5.4. Kredit və ya borcun valyutası;

4.5.5. Faiz *dərəcəsi və onun* müəyyən edilməsi proseduru;[19]

4.5.6. Faiz dərəcəsinin müəyyənləşdirilməsinə təsir edən digər amillər.

### 5. Transfer qiymətlərinin müəyyən edilməsi üsulları

5.1. Transfer qiymətlərinin müəyyən edilməsi üçün aşağıdakı üsullarından istifadə edilir:

5.1.1. Qiymətlərin müqayisəsi üsulu - nəzarət olunan əməliyyat çərçivəsində təqdim edilən və ya alınan malın (işin, xidmətin) qiymətinin nəzarət olunmayan əməliyyat çərçivəsində *formalaşan* qiymətlə müqayisə edilərək, transfer qiymətinin müəyyən edilməsidir. (Misal 1 əlavə olunur) [20]

*5.1.2. Sonrakı (təkrar) satış qiyməti üsulu - sonrakı satış qiymətindən tətbiq olunmuş əlavələr çıxılmaqla müəyyənləşdirilir (Misal 2 əlavə olunur).* [21]

5.1.3**.** Dəyərin toplanması üsulu -nəzarət olunan əməliyyatlar çərçivəsində təqdim olunan malların (işlərin, xidmətlərin) qiymətinin onların istehsalı ilə bağlı çəkilmiş faktiki xərclərin üzərinə əlavə edilən gəlir marjasının nəzarət *olunmayan* əməliyyatlar üzrə gəlir marjası ilə müqayisə edilərək, transfer qiymətinin müəyyən edilməsidir. (Misal 3 əlavə olunur ) [22]

5.1.4**.** Rentabellilik üsulu – nəzarət olunan əməliyyatlar çərçivəsində əməliyyatın tərəfi olan şəxsin əldə etdiyi mənfəətin onun ümumi xərclərində, gəlirlərində və ya aktivlərinin ümumi dəyərində xüsusi çəkisi müqayisə edilə bilən nəzarət olunmayan əməliyyat çərçivəsində tətbiq olunan xüsusi *çəki* ilə müqayisə edilərək, transfer qiymətinin müəyyən edilməsidir (Misal 4 əlavə olunur). ~~Bu Qaydaların 8-ci hissəsində göstərilən məlumat mənbələrində müqayisə edilən əməliyyatlar aşkarlanmadıqda, bu üsul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 55 nömrəli qərarı ilə təsdiq edilmiş "Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması Qaydaları"nda nəzərdə tutulmuş şərti rentabellik norması əsas götürülməklə tətbiq edilə bilər.~~[23]

*5.1.5. Mənfəətin bölgüsü üsulu - Vergi Məcəlləsinin 14-1.2-ci maddəsində göstərilən şəxslər arasında əməliyyatlar aparıldığı zaman tərəflərdən hər birinin həmin əməliyyatlardan əldə etdiyi mənfəətin həmin şəxslər arasında Vergi Məcəlləsinin 14-1-ci maddəsinə və bu Qaydalara əsasən bölüşdürülməsidir (Misal 5 əlavə olunur).*[24]

5.2. Transfer qiymətinin müəyyən edilməsi üçün mümkün olduğu bütün hallarda bu Qaydaların 5.1.1-ci yarımbəndində nəzərdə tutulmuş qiymətlərin müqayisəsi üsulu tətbiq edilməlidir.

5.3. *Qiymətlərin müqayisəsi üsulu ilə transfer qiymətinin* müəyyən edilməsi mümkün olmadıqda, habelə, bu üsulun tətbiqi üçün müqayisə oluna bilən əməliyyatlar yaxud həmin əməliyyatlar üzrə qiymətlər haqqında *mənbəyi bəlli olan məlumatlar olmadıqda, digər üsullardan istifadə edilir.*[25]

5.4. *Digər üsullar seçilərkən*, nəzarət olunan əməliyyatın xarakteri, əməliyyatın tərəfləri olan şəxslərin xüsusiyyətləri və digər göstəricilər əsas götürülməklə, *müəyyənləşdirilmiş* müqayisə edilən nəzarət olunmayan əməliyyat barədə məlumatlar hansı üsulun tətbiqinə daha çox imkan verirsə, həmin üsuldan istifadə edilir. *Əgər* əldə edilmiş məlumatlar həm bu Qaydaların 5.1.2-ci və ya 5.1.3-cü yarımbəndlərində nəzərdə tutulmuş üsullardan birinin, həm də bu Qaydaların 5.1.4-cü və ya 5.1.5-ci yarımbəndlərindəki üsullarından birinin tətbiqinə imkan verirsə, transfer qiymətinin müəyyənləşdirilməsi zamanı *bu Qaydaların* 5.1.2-ci və ya 5.1.3-cü yarımbəndlərindəki üsullardan biri seçilməlidir. [26]

### 6. Transfer qiyməti tətbiq edilməklə verginin yenidən hesablanması

6.1. Transfer qiymətinin müəyyən edilməsi üçün müqayisəli təhlil bu Qaydaların 4.2-ci bəndində göstərilən oxşar əməliyyatlar, habelə 8-ci hissəsində göstərilən *mənbələrdə* olan məlumatlara əsasən aparılmalıdır.[27]

6.2. Müqayisəli təhlil nəticəsində müqayisə edilə bilən yalnız bir əməliyyat tapılarsa, transfer qiyməti həmin əməliyyatın müvafiq göstəriciləri əsasında hesablanır.

6.3. Müqayisə edilə bilən bir neçə əməliyyat olduğu halda, transfer qiyməti bütün müqayisə edilən əməliyyatların seçilmiş müvafiq göstəricilərinin (qiymət, marja və ya xüsusi çəki) *kvartillərarası məqbul intervalının tapılması yolu ilə hesablanır (Misal 1-5 əlavə olunur).* [28]

6.4. Nəzarət olunan əməliyyatlar üzrə qiymət (marja və ya xüsusi çəki) nəzarət olunmayan əməliyyatlar üzrə transfer qiymətinə (marjaya və ya xüsusi çəkiyə) uyğundursa, yaxud müəyyən edilmiş interval daxilindədirsə, vergilər faktiki qiymət əsas götürülməklə hesablanır.

6.5. Nəzarət olunan əməliyyatlar zamanı:

6.5.1. Əgər nəzarət olunan əməliyyat vergi ödəyicisi tərəfindən malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlıdırsa və əməliyyat zamanı təsbit edilmiş qiymət müəyyənləşdirilmiş transfer qiymətindən və ya intervaldan aşağıdırsa, vergilər transfer qiyməti ilə, yuxarıdırsa faktiki satış qiyməti ilə hesablanır.

6.5.2. Əgər nəzarət olunan əməliyyat vergi ödəyicisi tərəfindən malların (işlərin, xidmətlərin) alınması ilə bağlıdırsa və əməliyyat zamanı təsbit edilmiş qiymət müəyyənləşdirilmiş transfer qiymətindən və ya intervaldan aşağı olduqda vergilər faktiki alış qiyməti, yuxarı olduqda isə transfer qiyməti ilə hesablanır.

*6.6. Müəssisənin yoxlanılan dövrdəki müvafiq göstəriciləri nəzarət olunmayan əməliyyatlar üzrə seçilən müəssisələrin yoxlanılan dövr və əvvəlki iki ilin orta göstəriciləri ilə müqayisə edilir. Bu halda müqayisə zamanı nəzarət olunmayan əməliyyatlar üzrə seçilən müəssisələrin illər üzrə fərqlənməsinə yol verilmir.*[29]

### 7. Sənədləşmə

7.1 Vergi ödəyicisinin vergi ili ərzində apardığı nəzarət olunan əməliyyatların ümumi dəyəri Vergi Məcəlləsinin 16.1.4-cü maddəsinə əsasən müəyyən edilmiş həddən artıq olduqda, həmin vergi ödəyicisi tərəfindən aparılmış əməliyyatlara dair məlumat Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətlərdə *Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2017-ci il 27 yanvar tarixli 1717050000006200 nömrəli Qərarı ilə müəyyən* edilən formada "Nəzarət olunan əməliyyatlar haqqında Arayış" və onun əlavəsi müvafiq qaydada doldurularaq vergi orqanına təqdim edilməlidir.[30]

7.2 Vergi ödəyicisinin vergi ili ərzində apardığı nəzarət olunan əməliyyatların ümumi dəyəri Vergi *Məcəlləsinin 16.1.4-cü maddəsində nəzərdə tutulan halların* olmaması səbəbindən Arayış təqdim edilmədiyi halda, vergi orqanları tərəfindən həyata keçirilən vergi nəzarəti tədbirləri zamanı həmin tədbirlərin əhatə etdiyi hesabat dövrlərində həyata keçirilmiş nəzarət olunan əməliyyatların qiymətləri bu Qaydalara əsasən müəyyənləşdirilməlidir.[31]

*7.3. Vergi ödəyicisi transfer qiymətini özü müəyyənləşdirdiyi hallarda bu Qaydaların 7.4-cü bəndində nəzərdə tutulmuş sənədlər vergi orqanına təqdim edilir.* [32]

*7.4. Vergi Məcəlləsinin 16.1.4-1-ci maddəsinə müvafiq olaraq vergi ödəyicisi vergi orqanının tələbi ilə aşağıdakı məlumatları vergi orqanına təqdim etməlidir:* [33]
*7.4.1. Müəssisə qrupu haqqında:*
*7.4.1.1.Müəssisə qrupunun tərkibi;*
*7.4.1.2. Müəssisə qrupunun fəaliyyət istiqamətləri, əhatə etdiyi coğrafi məkan və əsas gəlir mənbələri;*
*7.4.1.3. Müəssisə qrupunun qeyri-maddi aktivlərinin siyahısı, qeyri-maddi aktivlərlə bağlı həmin qrup daxilində xərclərin bölüşdürülməsinə dair razılaşmalar və müvafiq sahə üzrə həmin*

*qrupun transfer qiymət siyasəti;*

*7.4.1.4. Azərbaycan Respublikasında yoxlanılan müəssisənin müəssisə qrupuna daxil olan və nəzarət olunan əməliyyatlar apardığı müəssisələrin yoxlanılan dövr və ondan əvvəlki iki il üzrə maliyyə hesabatları;*

*7.4.1.5. Müəssisə qrupuna daxil olan müəssisələrin hər birinin qısa funksional təhlili (həyata keçirdiyi funksiyalar, daşıdığı risklər və istifadə etdiyi aktivlər);*

*7.4.1.6. Müəssisə qrupuna daxil olan müəssisələr arasında bağlanan maliyyə sazişləri ilə bağlı transfer qiymət siyasəti;*

*7.4.1.7. Müəssisə qrupunun fəaliyyət göstərdiyi sahə üzrə biznes strategiyası;*

*7.4.1.8. Müəssisə qrupu daxilində xərclərin bölüşdürülməsi ilə bağlı sənədlər.*

*7.4.2. Yoxlanılan müəssisə haqqında:*

*7.4.2.1. Müəssisənin yoxlanılan dövr və yoxlanılan dövrdən əvvəlki iki il üzrə maliyyə hesabatları;*

*7.4.2.2. Müəssisənin yoxlanılan dövrdə və ya son iki ildə baş ofis tərəfindən aparılan struktur dəyişiklikləri, bu dəyişikliyin müəssisəyə təsiri, qeyri-maddi aktivlərin təqdim edilməsi və bu əməliyyatların yoxlanılan müəssisəyə təsirlərinə dair məlumat;*

*7.4.2.3. Müəssisənin strukturu və hər struktur üzrə işçilərin sayı;*

*7.4.2.4. Müəssisənin yerli bazarda əsas rəqibləri;*

*7.4.2.5. Biznes restrukturizasiyası ilə bağlı sənədlər.*

*7.4.3. Nəzarət olunan əməliyyatlar barədə:*

*7.4.3.1. nəzarət olunan əməliyyatlar haqqında məlumat (biznes fəaliyyəti, müəssisə qrupunun maliyyə fəaliyyətləri, xərclərin bölüşdürülməsinə dair razılaşmalar və transfer qiymətinin müəyyən edilməsinə təsir göstərən digər məlumatlar);*

*7.4.3.2. nəzarət olunan əməliyyatların hər bir kateqoriyası üzrə xərclər;*

*7.4.3.3. nəzarət olunan əməliyyatların hər bir kateqoriyası ilə əlaqədar olaraq vergi ödəyicisinin təfsilatlı funksional təhlili, yəni icra olunmuş funksiyalar, istifadə edilmiş aktivlər (o cümlədən qeyri-maddi aktivlər) və yaranmış risklər, o cümlədən yoxlanılan dövr və yoxlanılan dövrdən əvvəlki iki illə müqayisədə baş vermiş dəyişikliklər barədə arayış;*

*7.4.3.4. vergi ödəyicisinin sənədləşdirilmiş nəzarət olunan əməliyyatın qiymətinə birbaşa və ya dolayısı ilə təsir göstərən digər nəzarət olunan əməliyyatlarının müəyyən edilməsi və onların təsviri;*

*7.4.3.5. əməliyyat kateqoriyası ilə əlaqədar ən münasib transfer qiymətləri üsulu olmasının qeyd edilməsi və bu üsulun seçilməsinin əsaslandırılması;*

*7.4.3.6. test edilən tərəf (müəssisə) kimi seçilmiş əlaqəli müəssisənin qeyd edilməsi və bu seçimin izahı;*

*7.4.3.7. seçilmiş müqayisə edilə bilən nəzarət olunmayan əməliyyatların siyahısı və təsviri, mümkün olduqda transfer qiymətlərinin müqayisəli təhlilində istinad edilmiş müstəqil müəssisələrlə bağlı maliyyə indikatorlarına dair məlumat, o cümlədən müqayisə edilə bilən axtarış metodologiyası;*

*7.4.3.8. müqayisəlilik məqsədilə edilən düzəlişlərin və bu düzəlişlərin test edilən tərəflər (müəssisələr), müqayisə edilən bilən, nəzarət olunmayan əməliyyatlar və ya hər ikisi ilə bağlı aparıldığının göstərilməsi;*

*7.4.3.9. nəzarət olunan əməliyyatların seçilmiş transfer qiymətləri üsulu əsasında qol uzunluğu prinsipinə uyğun olaraq aparıldığını təsdiqləyən halların təsviri;*

*7.4.3.10. transfer qiymətləri metodologiyasının tətbiqi ilə bağlı istifadə edilmiş maliyyə məlumatlarının icmalı.*

**8. Müqayisə edilə bilən əməliyyatların tapılması üçün istifadə edilən məlumat mənbələri**

8.1. Transfer qiymətləri müəyyən edilərkən aşağıdakı məlumat bazalarından istifadə edilir:

8.1.1. yerli və beynəlxalq birja kotirovkaları;

8.1.2. gömrük orqanının apardığı xarici ticarət statistikası;

8.1.3. mənbəyi bəlli olan məlumat mənbələrində yerləşdirilmiş hesabat məlumatları;

8.1.4. vergi orqanın qoşulduğu *ixtisaslaşmış beynəlxalq* agentliklərin məlumat bazaları;[34]

8.1.5. mallara, işlərə və xidmətlərə, habelə onların yerli və beynəlxalq bazarlarda təsbit edilmiş qiymətlərinə dair mənbəyi bəlli olan *digər* məlumat mənbələri.[35]

8.2. Vergi orqanları və vergi ödəyicisi tərəfindən müxtəlif malların, işlərin və ya xidmətlərin transfer qiymətlərinin müəyyənləşdirilməsi məqsədi ilə bu Qaydaların 8.1-ci bəndində nəzərdə tutulan məlumat bazalarından əlavə, müxtəlif ölkələrin dövlət və özəl şirkətləri haqqında maliyyə və statistik məlumatların müqayisəli təhlil, həmin ölkələrin bazar təhlili və maliyyə sahəsində müqayisə edilə bilən əməliyyatların seçilməsi imkanı verən digər mötəbər informasiya bazalarından istifadə edilə bilər.

8.3. Vergi orqanları transfer qiymətlərinin müəyyən edilməsi üçün müqayisə edilə bilən əməliyyatların tapılması məqsədi ilə *ixtisaslaşmış beynəlxalq* agentliklərin məlumat bazalarına qoşulduğu *zaman*, bu barədə vergi ödəyicilərinin məlumatlandırılması üçün zəruri tədbirləri görür.[36]

**9. Transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması**

*9.1. Vergi ödəyicisi hər hansı nəzarət olunan əməliyyat aparılmazdan əvvəl transfer qiymətlərinin üsulunun əvvəlcədən razılaşdırılması üçün müvafiq müqavilə ilə birlikdə əməliyyatın bütün təfsilatları barədə məlumatları təqdim etməklə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən müəyyən edilən ərizə ilə vergi orqanına müraciət edə bilər.*[37]

9.2. Bu Qaydaların 9.1-ci bəndində nəzərdə tutulmuş müraciət *həyata keçiriləcək nəzarət olunan əməliyyatın başlanmasına* ən azı üç (3) ay qalmış təqdim edilməlidir.[38]

*9.3. Transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması ilə bağlı müraciətə vergi orqanı tərəfindən 30 gün ərzində baxılır. Daxil olmuş müraciətin araşdırılması üçün əlavə vaxt tələb olunduğu halda səlahiyyətli orqanın müraciətə baxılma müddətini hər dəfə 30 gün olmaqla iki dəfə uzatmaq hüququ var. Bu halda müraciət edən şəxsə icra müddətinin uzadıldığı tarixdən gec olmayaraq məlumat verilməlidir. İmtina üçün bu Qaydaların 9.3-4-cü bəndində göstərilən əsaslar olmadıqda transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması barədə vergi ödəyicisinə məktub göndərilir. Vergi orqanının transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması barədə məktubunun qüvvədə olma müddəti 3 ildir.*[39]

*9.3-1. Vergi orqanı tərəfindən verilən transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması barədə məktub vergi ödəyicisi tərəfindən əvvəlki dövrlərdə həyata keçirilmiş və vergi yoxlaması ilə əhatə olunmamış eyni əməliyyatlara münasibətdə də tətbiq edilə bilər.*[40]

*9.3-2. Vergi orqanı ilə razılaşdırılmış transfer qiymətlərinin üsulu vergi orqanı tərəfindən başlamış və davam edən vergi yoxlaması ilə əhatə olunan əvvəlki dövrlərdə həyata keçirilmiş eyni əməliyyatlara tətbiq oluna bilməz.*

*9.3-3. Vergi orqanı ilə razılaşdırılmış transfer qiymətlərinin üsulunun tətbiqi vergi ödəyicisi üçün məcburi xarakter daşımır. Vergi orqanı ilə razılaşdırılmış transfer qiymətləri üsulunun tətbiqi nəticəsində müəyyənləşdirilmiş qiymət (marja, xüsusi çəki) müqayisə olunan nəzarət olunmayan əməliyyatların qiymətlərindən (marjalar, xüsusi çəki) fərqlənməməlidir.*

*9.3-4. Aşağıdakı hallarda vergi orqanı tərəfindən transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılmasından imtina edilir:*

*9.3-4.1. ərizədə və ona əlavə olunmuş sənədlərdə təhrif edilmiş məlumatlar olduqda;*

*9.3-4.2. ərizədə qeyd olunan əməliyyat üzrə bu Qaydalara uyğun olaraq transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılmasına dair vergi orqanının məktubu olduqda;*

*9.3-4.3. ərizədə qeyd olunan əməliyyat artıq baş tutmuş olduqda və ya tərəflər arasında müvafiq əməliyyatlara dair məhkəmə mübahisəsi olduqda;*

*9.3-4.4. vergi orqanı tərəfindən barəsində qəbul edilməsi üçün müraciət edilmiş əməliyyat üzrə vergi ödəyicisinin vergidən yayınma sxemi yaratmaqla vergi üstünlüyü əldə etmək məqsədinin olması müəyyən edildikdə.*

9.4. *Transfer qiymətlərinin vergi orqanı ilə razılaşdırılmış üsulundan istifadə etməklə* vergi ödəyicisi tərəfindən müəyyənləşdirilmiş transfer qiyməti yalnız vergitutma məqsədləri üçün gəlirin və xərclərin müəyyənləşdirilməsində istifadə edilir və müvafiq bəyannamə (mənfəət, gəlir və ya sadələşdirilmiş) təqdim edilərkən nəzarət olunan əməliyyatdan vergi həmin qiymətlə hesablanır. Əməliyyatın faktiki qiyməti əməliyyat tərəfləri arasında müstəqil razılaşdırıla bilər.[41]

9.5. Bu Qaydaların 9.4-cü bəndinə əsasən vergi ödəyicisi müvafiq bəyannaməni transfer *qiymətlərini tətbiq edərək* təqdim edirsə, *Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2017-ci il 27 yanvar tarixli 1717050000006200 nömrəli Qərarı ilə müəyyən* edilən formada "Nəzarət olunan əməliyyatlar barədə Arayış" vergi orqanına təqdim edilərkən həmin Arayışın "Nəzarət olunan əməliyyatlar üzrə tətbiq edilən transfer qiymətləndirilməsi haqqında məlumat" hissəsi də doldurulmalı və vergi orqanına elektron qaydada təqdim edilməlidir. Eyni zamanda, dəyişiklik bəyannamənin müvafiq sətrində nəzərə alınmalıdır.[42]

*9.6. Vergi orqanı tərəfindən transfer qiymətləri üsullarının əvvəlcədən razılaşdırılması çərçivəsində əməliyyatın xarakterindən asılı olaraq düsturlar və gəlirin bölüşdürülməsində istifadə edilən indikatorlar da razılaşdırılır.*[43]

**10. Transfer qiymətinin vergi ödəyicisi tərəfindən müstəqil şəkildə müəyyənləşdirilməsi.**

10.1. Vergi ödəyicisi *faktiki müqavilə qiyməti tətbiq edilən* əməliyyatlardan vergini bu Qaydalara əsasən müstəqil şəkildə müəyyənləşdirdiyi transfer qiyməti əsasında hesablaya, bəyan edə və ödəyə bilər. Bu halda transfer qiymətinin müəyyənləşdirilməsi üçün müvafiq üsul seçilərkən bu Qaydaların *5.2-5.4-cü bəndlərində* nəzərdə tutulmuş *tələblərə* əməl edilməlidir.[44]

10.2. Vergi ödəyicisi transfer qiymətlərini müstəqil şəkildə müəyyən etdiyi halda həmin qiymətin bu Qaydaların tələblərinə uyğunluğunun yoxlanılması üçün tələb olunan bütün sənədləri, o cümlədən, nəzarət olunan əməliyyatın ~~bütün~~ təfərrüatları və şərtləri, *hesablama məlumatlarını*, müqayisə üçün seçilmiş əməliyyatlar, həmin əməliyyatların və tətbiq edilmiş üsulun *seçilmə* səbəbi və əsaslandırılması haqqında məlumatları və təsdiqedici sənədləri də vergi orqanına təqdim etməlidir.[45]

10.3. Bu Qaydaların 10.1-ci və 10.2-ci bəndlərinə əsasən vergi ödəyicisi vergini transfer qiyməti əsasında hesablayırsa, "Nəzarət olunan əməliyyatlar haqqında Arayış"ın "Nəzarət olunan əməliyyatlar üzrə tətbiq edilən transfer qiymətləndirilməsi haqqında məlumat" adlı 3-cü bölməsi də doldurulmalıdır. Vergi ödəyicisi nəzarət olunan əməliyyatdan vergini faktiki müqavilə qiymətinə korrektə edilmədən hesablayaraq, bəyan edirsə həmin bölmə doldurulmur.

10.4. Vergi orqanı vergi ödəyicisinin müstəqil şəkildə müəyyən etdiyi transfer qiyməti ilə razılaşdığı təqdirdə nəzarət olunan *əməliyyat üzrə* vergi həmin qiymət əsas götürülməklə hesablanır.[46]

10.5. *Vergi ödəyicisinin təqdim etdiyi sübutlar kifayət etmədiyi üçün vergi orqanı transfer qiymətinin başqa üsuldan* və ya başqa müqayisə oluna bilən əməliyyatlardan istifadə edilməklə hesablanmalı olduğu qənaətinə gəldiyi halda, vergini *öz araşdırmaları* əsasında müəyyən etdiyi transfer qiyməti əsas götürülməklə hesablayır.[47]

**11. Mübahisələrin həlli**

11.1. Vergi ödəyicisi vergi orqanı tərəfindən müəyyənləşdirilmiş transfer qiyməti ilə razılaşmadığı halda transfer qiymətinin fərqli qaydada müəyyənləşdirilməli olması barədə vergi orqanına sübutlar təqdim edə bilər.

11.2. Vergi orqanı vergi ödəyicisinin təqdim etdiyi sübutların müəyyənləşdirilmiş transfer qiymətinin dəyişdirilməsi üçün kifayət etmədiyi barədə əsaslandırılmış qənaətə gəldiyi halda vergilər vergi orqanı tərəfindən müəyyənləşdirilmiş transfer qiyməti əsas götürülməklə hesablanır və ödənilir.

11.3. Bu Qaydaların 11.2-ci bəndinin müddəaları vergi ödəyicisinin qanunvericilikdə nəzərdə tutulmuş inzibati qaydada şikayət və məhkəməyə müraciət etmək hüquqlarını məhdudlaşdırmır.

## 12. İkiqat vergitutmanın aradan qaldırılması

12.1. Nəzarət olunan əməliyyatda transfer qiymətinin müəyyənləşdirilməsi və tətbiqi nəticəsində vergi ödəyicisinin vergitutma bazası dəyişikliklərə məruz qalarsa və bunun nəticəsində həmin əməliyyatdan mənfəətə münasibətdə həm Azərbaycan Respublikasında, həm də əməliyyatın digər tərəfi olan şəxsin dövlətində ikiqat vergitutma halının yarana biləcəyi halda vergi ödəyicisinin və ya əməliyyatın tərəfi olan digər şəxsin müraciəti əsasında vergi orqanı digər dövlətdə nəzərə alınması məqsədi ilə Azərbaycan Respublikasında əməliyyat nəticəsində ödənilmiş vergilər barədə məlumatı izahlı şəkildə müraciət edən şəxsə təqdim edə bilər.

12.2. Digər dövlətin səlahiyyətli orqanı Azərbaycan Respublikasının vergi orqanının gəldiyi nəticə və hesabladığı vergilərlə razılaşmadığı təqdirdə qarşılıqlı razılaşma proseduru həmin dövlətlə Azərbaycan Respublikası arasında qüvvədə olan ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilənin müddəaları əsasında aparılır.

12.3. Digər dövlətlə Azərbaycan Respublikası arasında qüvvədə olan ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilə mövcud olmadığı halda Azərbaycan Respublikasının qanunvericiliyi tətbiq edilməklə müəyyənləşdirilmiş transfer qiyməti və hesablanmış vergi ilə bağlı həmin digər dövlətin vergi orqanının mövqeyi nəzərə alınmır.

***Misal 1.*** [48]

***Qiymətlərin müqayisəsi üsulu:***

*A ölkəsində yerləşən Parent Co (Azərbaycan) şirkəti özünün B ölkəsində yerləşən törəmə şirkəti olan Subsidiary Co şirkətinə bir ədədinin qiyməti 50 000 AZN olmaqla, ümumi dəyəri 700 000 AZN olan 14 ədəd avadanlıq satır.*

*Oxşar əməliyyatlara və müvafiq məlumat mənbələrindən əldə olunan məlumatlara əsasən təqdim edilən malın qiyməti aşağıdakı hallar əsas götürməklə müqayisə edilir və transfer qiyməti müəyyən edilir:*


*Müqayisə edilə bilən nəzarət olunmayan əməliyyatlar zamanı təqdim edilən avadanlığın qiyməti:*

*· Parent Co və İndependent Co (C ölkəsi) arasındakı qiymət - 55 000 AZN*

*· İndependent Co (Azərbaycan) və Subsidiary Co (B ölkəsi) arasındakı qiymət - 62 000 AZN*

*· İndependent Co (Azərbaycan) və İndependent Co (F ölkəsi) arasındakı qiymət - 66 000 AZN*

*· İndependent Co (D ölkəsi) və İndependent Co (E ölkəsi) arasındakı qiymət - 70 000 AZN*




*Kvartillərarası intervalın tapılması:*

*Kvartillərarası interval düsturu: Q1 = (n+1)x0.25 və Q3=(n+1)x0.75*

*Q1 = aşağı kvartil medianı;*

*Q2 = median;*

*Q3 = yuxarı kvartil medianı;*

*n- təqdim edilən göstəricilərin sayı.*

| *Göstəricilər:* | *55 000 AZN* | *62 000 AZN* | *66 000 AZN* | *70 000 AZN* |
|---|---|---|---|---|
| *n:* | *1* | *2* | *3* | *4* |

*Q1 (aşağı kvartil medianı) = (n+1)*0.25 = (4+1)*0.25=1.25 = (55 000+62 000)/2 =58 500*

*Q2 (median) = (n+1) *0.5 = 5*0.5= 2.5 = (62 000+66 000)/2 =64 000*

*Q3 (yuxarı kvartil medianı) = (n+1)*0.75 = (4+1)*0.75= 3.75 =68 000*

*Kvartillərarası interval düsturunun tətbiqi ilə kvartillərarası hesablanma prosesi aşağıdakı kimidir:*

*1. Müəyyənləşdirilmiş nəzarət olunmayan əməliyyatların göstəriciləri aşağı göstəricidən yuxarı göstəriciyə ardıcıllıqla düzülür;*

*2. Aşağı göstəricidən yuxarı göstəriciyə ardıcıllıqla düzülmüş nəzarət olunmayan əməliyyatların göstəriciləri sıra sayı ilə nömrələnir. Məsələn: nəzarət olunmayan göstəricilər – 55 000, 62 000, 66 000, 70 000 -dirsə, bu, müvafiq olaraq 1, 2, 3, 4 kimi işarələnir;*

*3. Aşağı şkaladan yuxarı şkalaya ardıcıllıqla düzülmüş və sıra sayı ilə işarələnmiş nəzarət olunmayan əməliyyatlar aşağı kvartil medianı (Q1) və yuxarı kvartil medianı (Q3) hesablanaraq, kvartilarası mövqe müəyyənləşdirilir. Məsələn: nəzarət olunmayan əməliyyat göstəriciləri – 55 000, 62 000, 66 000, 70 000 -dirsə və müvafiq olaraq 55 000-ni 1, 62 000-ni 2, 66 000-ni 3, 70 000-ni 4 sıra sayı ilə qiymətləndirdikdə, Q1=(4+1)x0.25=1.25, Q3=(4+1)x0.75=3.75 olur. Bu isə o deməkdir ki, Q1 (1.25) –in mövqeyi 55 000 və 62 000, Q3 (3.75)-in mövqeyi 66 000 və 70 000 arasındadır.*

*4. Düsturun tətbiqi ilə müəyyənləşdirilmiş mövqe kəsr ədədi ilə alınırsa, bu zaman hesablanmış mövqeyə düşən iki ümumi risk dərəcəsini toplayaraq ikiyə bölmək lazımdır. Məsələn: Q1=(55 000+62 000)/2=58 500(aşağı kvartil median), Q3=(66 000+70 000)/2=68 000 (yuxarı kvartil median).*

*5. Nəticədə kvartillərarası interval Q1(58 500) – Q3(68 000) arasında dəyişir. Göstərilən hal üzrə satış qiyməti (50 000 AZN) müəyyən olunan kvartillərarası intervalının (58 500 – 68 000 AZN) aşağı həddindən də az olduğundan, transfer qiyməti kimi – Q2 (median) = (62 000 + 66 000)/2 = 64 000 AZN götürülür və vergilər yenidən hesablanır.*

***Misal 2.***


***Sonrakı (təkrar) satış qiyməti üsulu:***

*Subsidiary Co (Azərbaycan) şirkəti ana müəssisəsi olan Parent Co şirkətindən malı alır və sonradan müstəqil tərəflərə satır.*

*2015-ci il ərzində Subsidiary Co şirkəti hər birinin qiyməti 800 AZN olmaqla 1000 ədəd, ümumi dəyəri isə 800 000 AZN olan mobil telefon almışdır.*

*Mobil telefonun qiymətinə alış qiyməti (750 AZN) və idxal xərcləri (gömrük, nəqliyyat və digər xərclər – 50 AZN) daxildir.*

*Sonradan həmin mobil telefonlar hər birinin qiyməti 1 000 AZN-dən satılmışdır.*




*Bu halda ən uyğun metod təkrar satış marjası üsulu ola bilər (qiymətlərin müqayisəsi üsulunun tətbiqi mümkün olmadığı halda).*

*Oxşar əməliyyatlara və müvafiq məlumat mənbələrindən əldə olunan məlumatlara əsasən müəyyən edilir ki, müqayisə oluna bilən 4 şirkətdə həmin mallar üzrə təkrar satış marjası Kvartillərarası məqbul interval (28% + 29% + 31 % + 32%) arasındadır. Kvartillərarası məqbul interval 1-ci misalda göstərilən qaydada hesablanmışdır.*

*Transfer qiymətinin hesablanması üçün Kvartillərarası məqbul intervalın marjası – 30 % (28% + 29% + 31 % + 32% ) təkrar satış marjası kimi qəbul edilir.*

*Transfer qiyməti aşağıdakı kimi hesablanır:*

*yenidən satış qiyməti – (yenidən satış qiyməti*təkrar satış marjası –idxal xərcləri)*

*Bu halda mobil telefonlar üçün transfer qiyməti aşağıdakı kimi olmalıdır:*

*650(1000 – 50 -(1000*30%))*

***Misal 3.***

***Dəyərin toplanması üsulu:***

*Parent Co (Azərbaycan) şirkəti asılı olan Subsidiary Co şirkətinin sifarişləri əsasında elektrik stansiyası üçün avadanlıq istehsal edir. Parent Co şirkəti üçün məhsulun satış riski və digər risklər Subsidiary Co şirkətinə nisbətən aşağıdır.*

*Avadanlığın istehsal xərcləri 700 000 AZN, satış qiyməti 805 000 AZN olmuşdur.*

*Parent Co şirkəti üçün əlavə gəlir marjası 15 faiz təşkil edir.*




*Bu halda ən uyğun metod dəyərin toplanması üsulu ola bilər (qiymətlərin müqayisəsi üsulunun tətbiqi mümkün olmadığı halda).*

*Oxşar əməliyyatlara və müvafiq məlumat mənbələrindən əldə olunan məlumatlara əsasən Parent Co şirkəti ilə eyni və ya oxşar məhsulların istehsalı və satışı ilə məşğul olan 3 şirkətdə əlavə gəlir marjası kvartillərarası intervalı 18 - 22 faiz arasında dəyişir.*

*Nəticədə, kvartillərarası intervalın medianı - 20 faiz (18 % + 20 % + 22%) əlavə gəlir marjası kimi qəbul edilir.*

*Transfer qiyməti aşağıdakı kimi hesablanır:*

*çəkilən xərc + gəlir marjası*

*Bu halda transfer qiyməti olmalıdır - 840 000 AZN ( 700 000 + (700 000 x 20%))*


***Misal 4.***
***Rentabellilik üsulu:***
*Parent Co (Azərbaycan) şirkəti özünün Subsidiary Co törəmə şirkətinə hər hansı xidməti 600 000 AZN təqdim edir, bu zaman 400 000 AZN xərc çəkir və 200 000 AZN mənfəət əldə edir.*
*Həmin əməliyyatdan əldə olunan 200 000 AZN mənfəətin ümumi xərclərdə xüsusi çəkisi 50 faiz təşkil edir.*




*Oxşar əməliyyatlara və müvafiq məlumat mənbələrindən əldə olunan məlumatlara əsasən, müəyyən edilir ki, müqayisə oluna bilən yalnız 1 şirkət var və həmin şirkətdə mənfəətin ümumi xərclərdəki xüsusi çəkisi 60 faiz təşkil edir.*
*Nəticədə transfer qiyməti 60 faizlik xüsusi çəki nəzərə alınmaqla hesablanır və mənfəət 240 000 AZN müəyyən edilərək vergi yenidən hesablanır.*

***Misal 5.***
***Mənfəətin bölgüsü üsulu:***
*Parent Co şirkəti özünün Subsisiary Co (Azərbaycan) törəmə şirkəti ilə birgə üçüncü tərəfə 1 200 000 AZN müqabilində xidmət təqdim edir. Xidmətin təqdim edilməsi ilə bağlı 900 000 AZN məbləğində ümumi xərc çəkilir və ümumi mənfəət 300 000 AZN təşkil edir.*
*Bu mənfəətdən 120 000 AZN törəmə şirkətdə qalır, qalan hissəsi – 180 000 AZN isə baş ofisə köçürülür. Bu, müxtəlif səbəblərlə, məsələn, xidmətin baş ofisinin işçiləri tərəfindən göstərilməsi, törəmə şirkətin qeyri-maddi əmlakdan istifadə etməsi, daha az funksiya və ya risk daşıması və s. ilə əsaslandırıla bilər.*

*Müəssisə qrupu*




*Həmin əməliyyatdan törəmə şirkətin payının ümumi mənfəətdə xüsusi çəkisi 40 faiz ( 120 000 / 300 000), baş ofisin payı isə 60 faiz təşkil edir.*
*Bu halda transfer qiymətləndirilməsi üzrə təhlillər aparılaraq müvafiq göstəricilər yenidən bazıla bilər.*
*Aparılan təhlillər nəticəsində müəssisə qrupunda mənfəətdəki xüsusi çəki 50/50 faiz şəklində bölünür.*
*Bu halda Azərbaycandakı törəmə şirkətin ümumi mənfəətdəki xüsusi çəkisi 40 faiz deyil, 50 faiz götürülür və nəticədə mənfəət vergisi 150 000 AZN-dən hesablanır.*

~~Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2017-ci il 27 yanvar tarixli 171705000006200 nömrəli Qərarı ilə təsdiq edilmişdir~~

~~Əlavə – 2~~

**~~Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatının aparılması qaydası~~**

**~~1. Ümumi müddəalar~~**

~~1.1. "Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatının aparılması qaydası" (bundan sonra - Qayda) Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2016-cı il 23 dekabr tarixli 1171 nömrəli Fərmanının 2.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır.~~

~~1.2. Bu Qayda Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – Vergi Məcəlləsi) 24.0.7-2-ci və 165.4-cü maddələrinə əsasən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada təşkil edilən ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin vergi orqanları tərəfindən qeydiyyatının aparılması üzrə prosedurları müəyyən edir.~~

~~1.3. Bu Qaydanın məqsədləri üçün satıcı dedikdə ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək üçün qeydiyyata alınan ƏDV ödəyicisi başa düşülür.~~

~~1.4. Bu Qaydada istifadə olunan digər anlayışlar Vergi Məcəlləsində müəyyən edilmiş mənaları ifadə edir.~~

**~~2. Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı qismində qeydiyyata alınması~~**

~~2.1. Satıcı ticarət festivallarının təşkili qaydasının tələbləri nəzərə alınmaqla qeydiyyata alınmaq üçün aşağıdakı tələblərə cavab verməlidir:~~

~~2.1.1. ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməlidir;~~

~~2.1.2. pərakəndə ticarət fəaliyyəti ilə məşğul olmalıdır;~~

~~2.1.3. pərakəndə ticarət fəaliyyəti üçün vergi orqanında qeydiyyatda olan təsərrüfat subyektinə (obyektinə), həmin təsərrüfat subyektində (obyektində) vergi qanunvericiliyinə uyğun olaraq quraşdırılmış nəzarət kassa aparatına və işlək vəziyyətdə olan POS-terminala malik olmalıdır;~~

~~2.1.4. Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergilərlə bağlı dövlət büdcəsinə borcu və digər öhdəliyi (Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada borcun ödənilməsinə möhlət verilməsi və (və ya) vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin dəyişdirilməsi halları istisna olmaqla) olmamalıdır.~~

~~2.2. Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisi satıcı kimi qeydiyyata alınmaq üçün kağız daşıyıcıda və ya elektron formada bu Qaydanın 1 nömrəli əlavəsində müəyyən olunmuş "Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı kimi qeydiyyata alınması haqqında ərizə" ilə vergi orqanına müraciət edir. Vergi ödəyicisi bir ərizə ilə eyni zamanda bir neçə təsərrüfat subyekti (obyekti) üzrə satıcı kimi qeydiyyata alınması üçün müraciət edə bilər.~~

~~2.3. Satıcı ərizəni elektron formada vergi orqanına göndərmək üçün gücləndirilmiş elektron imza ilə İnternet Vergi İdarəsi portalının "Onlayn" kargüzarlıq bölməsində bu Qaydanın 1 nömrəli əlavəsində müəyyən olunmuş ərizə formasının müvafiq xanalarını doldurmalıdır.~~

~~2.4. Kağız formasında ərizə vergi ödəyicisinin uçotda olduğu vergi orqanına təqdim edilir.~~

~~2.5. Elektron və kağız formasında təqdim edilmiş ərizələr emal edilmək məqsədi ilə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində yaradılmış "Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı kimi qeydiyyata alınması haqqında ərizə" pəncərəsinə ötürülür.~~

~~2.6. Ərizənin emalı həyata keçirilərkən satıcı kimi qeydiyyatdan keçmək istəyən vergi ödəyicisinin ərizəsinin məlumatlarının bu Qaydanın 2.1-ci bəndinin tələblərinə uyğunluğu yoxlanılır. Ərizədə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, ərizənin daxil olduğu tarixdən 3 iş günündən gec olmayaraq həmin çatışmazlıqların aradan qaldırılması barədə bu Qaydanın 2 nömrəli Əlavəsinə uyğun olaraq "Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı kimi qeydiyyata alınması üçün təqdim etdiyi ərizədəki çatışmazlıqlar barədə bildiriş" hazırlanır və elektron formada vergi ödəyicisinin *elektron kabinetinə* və ya kağız daşıyıcıda sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Bütün çatışmazlıqlar ərizəçiyə eyni zamanda bildirilməlidir. Bir təsərrüfat subyekti (obyekti) üzrə aşkar edilmiş çatışmazlığın ərizədə göstərilən digər təsərrüfat subyektləri (obyektləri) üzrə vergi ödəyicisinin satıcı kimi qeydiyyata alınmasını dayandırmır.~~ [49]

~~2.7. Vergi ödəyicisi aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra təkrar ərizə ilə vergi orqanına müraciət edə bilər.~~

~~2.8. Vergi ödəyicisi vergi orqanı tərəfindən 5 iş günündən gec olmayaraq satıcı qismində qeydiyyata alınır və bu barədə ona Qaydanın 3 nömrəli əlavəsinə uyğun olaraq "Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı kimi qeydiyyata alınması haqqında arayış" təqdim edilir.~~

~~2.9. Vergi ödəyicisi satıcı qismində qeydiyyata alındıqdan sonra 10 iş günü müddətində vergi orqanı bu Qaydanın 2.2-ci bəndində qeyd edilən ərizədə göstərilən təsərrüfat subyektini (obyektini) alıcılara təqdim edilən *elektron qaimə-fakturaların tərtib edilməsinə, həmin elektron qaimə-fakturalar* barədə məlumatların aidiyyəti üzrə vahid məlumat bazasına ötürülməsinə imkan verən proqram təminatı *ilə* təchiz edir və bu barədə akt tərtib edilir.~~ [50]

~~2.10. Satıcının yeni təsərrüfat subyekti (obyekti) qeydiyyatdan keçdikdə, həmin təsərrüfat subyekti (obyekti) üzrə satıcı tərəfindən ƏDV-nin qaytarılması şərti ilə malların satışının həyata keçirilməsi üçün vergi orqanına yenidən ərizə ilə müraciət edilir.~~

**~~3. Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı qismində qeydiyyatına xitam verilməsi~~**

~~3.1. Vergi ödəyicisinin satıcı qismində qeydiyyatına bu Qaydanın 3.2-ci bəndində müəyyən olunmuş hallarda vergi orqanı tərəfindən xitam verilir.~~

~~3.2. Vergi ödəyicisinin satıcı qismində qeydiyyatına aşağıdakı hallarda xitam verilir:~~

~~3.2.1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müəyyən edilmiş ticarət festivallarının təşkili qaydasının tələblərini pozduqda;~~

